**Xəlil İSMAYILOV**
***Əməkdar mədəniyyət işçisi***
***BMT yanında Beynəlxalq***
***İnformasiyalaşdırma Akademiyasının***
***akademiki, tarix elmləri doktoru, professor***

# KİTABXANA DİZAYNININ YARANMASI, İNKİŞAFI VƏ MÜASİR VƏZİYYƏTİ

***Açar sözlər:****kitabxana, dizayn, incəsənət, memarlıq, rəssamlıq, kitabxana binası, tərtibat*
***Key words:****library, design, art, architecture, painting, library building, decor*
***Ключевые слова:****библиотека, дизайн, искусство, архитектура, живопись, здание библиотеки, декор*

*Məqalədə kitabxana dizaynının yaranması, inkişaf tarixi, bu fəaliyyətin əsas xüsusiyyətləri haqqında bəhs olunur. Məqalədə kitabxana dizaynının müasir vəziyyəti və perspktivləri haqqında da nəzəri ümumiləşdirmə aparılır.*

Giriş.Dizayn işi bütün idarə, müəssisə, təşkilat, iri sənaye müəssisələri, ayrı-ayrı sənaye məhsullarının istehsalında geniş şəkuldə nəzərə alınan və tətbiq edilən bir sənətkarlıq işidir.

Müasir kitabxanalar bir sıra çox funksiyalı müəssisələr kimi ictimai, təhsil və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərdiyinə görə, kitabxanalarda dizayn işinin tətbiq olunması çox vacib məsələlərdən biridir. Ona görə də kitabxanaların təkrar olunmaz və əla görüntüsünü yaratmaq üçün bir sıra problemlərin həlli nəzərdə tutulmalı, onun müəssisə kimi digər müəssisələrdən fərqlənən xüsusi imicini yaratmaq lazımdır. Bu zaman ən aparıcı elementlərdən biri kitabxana dizaynı hesab olunur. Ən aparıcı elementlərdən olan müxtəlif aspektlərdə fəaliyyət sahələri, kitabxana texnologiyası, kitabxana pisixologiyası, kitabxana estetikası və s. sahələrin dizaynı işini nəzərdə tutur. Bu aspektlərin nə dərəcədə yerinə yetirilməsi, dizayn işinin nə dərəcədə xüsusi yaradıcılıqla həyata keçirilməsi, oxucuların gəlişinə və kitabxanaların perestejinə bie o qədər artıq təsir göstərəcək. Əvvələr kitabxana işi təcrübəsində dizayn işi kompleks şəklində baxılmamış və tədqiq olunmamış, dəqiqliyi ilə bu termin və anlayış "Kitabxana dizaynı" kimi tədqiq olunmamışdır.

Məsələnin qoyuluşu.Elmi ədəbiyyatda dizayn işinin ayrı-ayrı aspektləri problem kimi "Kitabxana binalarının tikintisi", "Binaların işıqlandırılması", "Kitabxanalarda tərtibat işlərinin aparılması" və s. müzakirə olunmuşdur (2, s.89).

Hələ, XV əsrdə dünyanın bir sıra ölkələrində çox görkəmli memarlar, alimlər və rəssamlar dizayn işi ilə maraqlanmış, bir sıra ixtira və yenliklərlə şöhrət tapmışlar. Bu dövrdə ən çox şöhrət qazanmış rəssam və mühəndis Lenardo Davinçinin adını çəkmək olar. O bir sıra maşın, əşya və avadanlıqların, tikintidə istifadə olunan maşın və qurğuların hətta tankların quruluşu və dizaynı haqqında lahiyələr verilmişdir. Bu dövrdə binaların daxili strukturu və tərtibatı xüsusilə mebel dəstlərinin hazırlanması və yerləşdirilməsi daha çox diqqəti cəlb edirdi. Qeyd olunmalıdır ki, bu zaman daxili interyerin və mebellərin oxşar cəhətləri, yəni oxşarlığı saxlanılırdı.

Rusiyada dizayn işinin aktiv şəkildə aparılması l Pyoturun dövründə daha da genişləndi.Çar Pyotur geniş şəkildə rəssamlıq sənətinə böyük əhəmiyyət vermiş, bacarıqlı rəssamların işlərini qiymətləndirirdi. Belə bacarıqlı sənətkarlardan biri, texniki dizayn işinin yaradıcılarından olan A.K.Narton l Pyoturun şəxsi mexaniki, heykəltəraş, alim bu dövrdə xüsusi şöhrət qazanmışdır. O, xüsusi mexanikləşmiş qurğuların lahiyələrini hazırlamış, baryeflərin sürətini çıxarılması üçün qurğu və avadanlıqlar ixtira etmişdir. Bu dövrdə Rusiyada məhəllə və parklarda müxtəlif ansambllar yaradılmağa başlamışdır (4, s.19).

Ansamblların yaranması ilə əlaqədar yeni saraylar və klublar yaranmağa başladı. Xüsusilə Povlivskidə Yarıski kəndində, Qatçinada Peterburq ətrafında, Moskva ətrafında Kuskovo və Ostankinoda xüsusi yarası, xarici görünüşü çox səliqəli klub binası və saraylar tikilmişdir. Misal olaraq göstərmək olar ki, görkəmli memar və dizaynerÇarliz Kameronun lahiyəsi əsasındaPavlovda tikilənYekatirina sarayı kimi ucaldılmışdır. Həmçinin sarayın daxili ornamenti, tərtibat xüsusi işlənilmiş və tərtib olunmuşdur. Süsusilə işıqlandırıcı cihazlar, asma lampalar, dekorativ vazlar qoyulmişdur ki, onlar sarayın daxili görnüşünü daha da gözəlləşdirmişdi.

Qeyd etmək lazımdır ki, dizayn işinin formalaşması, təkmilləşdirilməsi, uzun müddət çəkmiş və nəhayət onun profesional xüsusi fəaliyyət növü kimi yaradılması təxminən 1907-ci ilə təsadüf edir. Hansı ki, ümumdünya energetika kompaniyalarında elektrik ləvazimatları istehsalında yeni vəzifə üsulu yaradılır. Dizayn işi üzrə ilk ali məktəb isə 1919- cu ildə (Alman tikinti evində) "Bayxauz" adı ilə fəliyyətə başlayır, onun ilk yaradıcısı alman konstrukturuvə memarVolter Qropius olmuşdur."Bayxauz"az bir zaman kəsiyində dizayn işi üzrə metodik mərkəzə çevrilmişdir (8, s.19)

Müasir dövrdə dizayn işi olduqca aktuallıqkəsb edir və bütün istehsal sahələrini əhatə edir. Hazırki zamanda funksional yanaşmada və əhatə dairəsinə görə kitabxana binalarının yerləşdirilməsinə və kitabxana xidmətinin təşkili baxımından olduqca ciddi yeniliklər nəzərdə tutulur. Geniş mənada kitabxanalara təkcə maddi obyekt kimi yoxfondun yerləşdirilməsi, onun açıq olması, şəffaflığı, interyerin cəlb edici olması göz oxşayan və səliqəli,



informasiyanın əhatəli olması vacibdir. Artıq XX əsrin ortalarında dizayn işinin bir sıra formaları və növləri meydana gəlməyə başladı. Qeyd etmək lazımdır ki, dizayn çox sahəli anlayışdırvə bir sıra mənalarda müxtəlif sferalarda tətbiq edilir. Uzun müddət üç əsas növ fərqləndirilmişdir. Bunlardan ən geniş yayılnmış, sənayedə tətbiq olunan sənaye dizaynı hesab olunur.

İkincisi dünya qrafiki sənəti ilə bağlı olmuş plakat, mətbəə elanları, kitab tərtibatı, bir sözlə informasiya resurslarını özündə birləşdiri və "Qrafik dizayn adlanır.

Üçüncü növ dizayn memarlıq işinə aid olub XX əsrdə çox geniş yayılmış bütün tikinti və təmir işlərində tətbiq olunan "Memarlıq dizayn"ı hesab olunur.

Bu üç dizayn növündən başqa artıq 1960-1970-ci illərdən başlayaraq şəhərlərdə aparılan təmir-tikinti və abadlıq işləri ilə yanaşı dizayn işinin yeni istiqamətləri yaranmağa başladı. Bu mənada yaradılan "Landşaftdizaynı" ənənəvi bağçılıq və park incəsənət işlərini geridə qoyaraq yeni landşaft işini yaratdı (6, s.19).

Bunlardan başqa həmin dövrdə ekspozisiya sərgi dizaynı meydana gəldi ki, bu növdən bayram tədbirlərində qrafik, dizayn və sərgi ekspozisiyaları birləşmiş qaydada istifadə olunmuşdur. Daha sonra ən çox geniş yayılmış növlərdən biri "geyim və aksesuarların dizaynı" tətbiq olunmağa başladı. "Nəhayət kitabxana dizaynı təxminən eyni vaxtda digər dizayn növlərilə birgə yanmışdır. Baxmayaraq ki, bu o dizayn növünə dair olduqca az əsərlər və işləmələr həsr olunmuşdur. Baxmayaraq son dövrlərdə bir sıra rus alimlərinin kitabxana dizaynına həsr olunmuş əsərləri vardır. Xüsusilə rus alimlərindən biri çoxu A.N.Vanel, A.L.Qoldenberq, Y.A.Qrixanov, U.M.Stolyarov, İ.M. Furumen, A.O.Çerneov, R.İ.Povilenko, F.N. Poşenko, M.U.Dvornika və b. əsərlərində bu sahəyə dair bir sıra konsepsiyalar işlənilmişdir(2, s.19).

Elmi ədəbiyyatda qeyd olunduğu kimi 60-70-ci illərdə dizayn haqqında bir sıra yazılar dərc olunmasına baxmayaraq (Arxiv jurnalı№ 4.09.01 "технической эстетике к библиотечиогии дизаун") Dizayn Sovet dövründə elə bil ümumiyyətlə tətbiq olunmamış, bundan başqa dizayn sözünün özü də həmin dövrdə az işlənilmiş və yazılarda dərc olunmamışdır. Əsasən bu termini əvəz edən "Texniki estetika və ya bədii konstruksiya"sözlükləri ilə əvəz edilirdi. Bir sözlə təbii olaraq kitabxanaşünaslıq elmi sahəsində və bu sahədə təcrübi fəaliyyətdə "Kitabxana dizaynı demək olar ki, işlənilməmiş və kitabxanaların fəaliyyətində tətbiq olunmamış və konkret formada istifadə olunmamışdır. Lakin son illərdə "Kitabxana dizaynı" haqqında yazılar dərc olunduqdan sonra, həmçinin "Kitabxana dizaynı " haqqında tədris vəsaiti və məqalələr çap olunduqdan sonra bu sahəyə diqqət xeyli artmışdır. Kitabxana belə bir vəsaitin dizaynı kimi çap olunması kitabxana dizaynın inkişafına xüsusi təkan verdi. Bu vəsait çox sanballı kitabxana işi sahəsində tanınmış

alimlər qurupunun qələmindən çıxmış bir vəsait idi. Daha sonra E.V.Balaşova, M.N. Fişsenko, A.N.Vanel xüsusi bir monoqrafiya çap etdirmişlər (1, s.30).

Bu müəlliflər doğrudan da manaqrafiyada müasir dövr üçün bir sıra yeni və sanballı fikirlər irəli sürmüş və dizayn işinin yeni strukturlarını müəyyənləşdirmişlər. İlk növbədə onlar "Kitabxana dizaynı" üçün yeni cəhətlər və yeni aspektlər müəyyənləşdirmişlər. Kitabxana binalarının həlledici məqsədləri üçün bədii konstruksiya, çoxsahəlifəliyyət, kitabxanada xüsusi (firmennı stil)konfertabellilik, estetik gözəllik, ətraf mühütlə harmoniya və s. yeni aspektlər nəzərdə tutulmuşdur (3, s.9).

Kitabxana daxili dizayn kitabxana işinin təşkilində xüsusi əhəmiyyət kəsb edir. Kitabxanaların xarici görkəmi ilə yanaşı onun dizayn strukturu xüsusi əhəmiyyət kəsb edir. Kitabxana daxili dizayn mürəkkəb struktura malik olsada həm oxucular, həm də kitabxana əməkdaşları üçün daha çox əhəmiyyətlidir. Ona görə də funksiyasına görə kitabxanalar daxildə müxtəlif zonalara bölünmüşlər: oxucular üçün, kitabsaxlayıcı, xidmət-istehsalat.

Bu bölgü əsasında kitabxana işçiləri üç kəsişən hərəkətbirləşməsində öz cəhdlərini göstərirlər: oxucular, kitablar, kitabxana əməkdaşları. Oxuculardan danışarkən bəzi cəhətlərə görə daha üç yeni zona müəyyənləşir ki, onun bəzi spesifik və lazimi cəhətlərini nəzərə almaq lazımdır: daha çox səsli- kitab verilişi məntəqəsi, yarım sakit – məlumat – biblioqrafiyazalı, dövrü mətbuat zalı: ən sakit dövrü mətbuatzalıdır. Həmin zalların dizayn tərtibatı zamanı elmi əsaslarla düşünülmüş bir sıra cəhətlər nəzərə alınmalıdır. Belə ki, daha çox səsli zonalarda müxtəlif sərgilər və yeni daxil olan kitabların siyahıları yerləşdirilməli göstəriləcək xidmətin mahiyyəti, nəzərdə tutulan tədbirlər informasiyalar bölmənin xarakterinə uyğun öz əksini tapmalıdır.

Yarım sakit zalda oxuculara imkan verilir ki, soraq məlumat nəşrləri ilə biblioqrafik göstəricilər və kataloqlarla işləmək şəraiti yaradılır. Burada yaxşı olar ki, həmçinin yeni ədəbiyyatın sərgisi yaradılsın dövrü mətbuata baxış üçün stollar qoyulsun. Məlumat ədəbiyyatı divara yaxın stelajlarda yerləşdirilsin.

Son zamanlarda məlumat biblioqrafiya zalında daha çox xidmət üçün avtomatlaşdırılmış iş yerləri işçilər və oxucular üçün nəzərdə tutulur. Avtomatlaşdırılmış iş yerləri məlumat-informasiya və komputer ekranında görüntülərin izlənilməsi konfortlu xidmət, informasiya axtarışı geniş və operativ formada baxılmasına imkan verir.

Yuxarıda qeyd etdiyimiz uç oxu zonasından biri həm də axırıncısı o biri zonalardan fərqli olaraq dizayn tərtibatına görə konforta, maraqlı və gözoxşayan stildə, bütün tərtibat xüsusiyyətləri nəzərə alınaraq işlənilməlidir. Həm də ona görə ki, ən çox oxucu axını bu zalda işləyir müxtəlif yaş qrupları və peşə sahibləri birlikdə burada tədqiqat aparır, informasiya ilə tanış olurlar. Oxucular adətən çox da böyük olmayan zallarda məşğul olmağı daha çox



sevirlər. Burada mebellərin xüsusi şkafların və bir sıra lazımsız avadanlıqların olması o qədər də ürəkaçan deyil. Odur ki, belə struktur quruluşla nəzərə alınmalıdır. Bir qayda olaraq yazı masaları pəncərəyə tərəfperpendikulyar qoyulmalı, paralel şəkildə düzülməli, oxucular gündüz işığı qəbul edə bilsindeyəişıq sol tərəfdən düşməlidir. Kitabxanaların dizayn işindən danışarkən daxili tərtibat, gözoxşayan və cəlbedici şərait mütləq nəzərə alınmalıdır. Xüsusilə oxu zallarının tərtibatı daha konfortlu olmalıdır. İlk növbədə oxu zallarının dəhlizlərin işıqlandırılması, sərgi elementlərinin strukturu düzgün seçilməlidir. Bu tərtibat strukturu həyata keçirilərkən sakitləşdirici rənglərə, oxu zamanı baxışları ağırlaşdırmayan boyaq tonundan istifadə etmək daha məqsədə uyğundur. Yaxşı olar ki, oxu zallarının pəncərələrindən baxarkən gözoxşayan yaşıllıqlar, memarlıq üslubunda tikilmiş binalar bir anlıq kitabdan ayrılıb gözə istirahət verərkən maraqlı bir peyzaj səhnəsini seyr edərkən göz dincəlsin. Bütün kitabxana daxili interyerin qurulması bütün əşya və avadanlıqların yerləşdirilməsi kitabxana binalarının layihələşdirilməsindən və tikintisindən asılıdır. Bir məsələni təəssüflə qeyd etmək lazımdır ki, hələlik xüsusi bir stildə kitabxana binaları Respublikamızda tikilib istifadəyə verilməmişdir.İnkişaf etmiş ölkələrdə, eləcə də qonşu Rusiyada birtipli və müxtəlif memarlıq üslubunda kitabxana binaları layihələşdirilir və kitabxanaların tipləri, növləri və strukturu nəzərə alınmaqla binalar tikilir. Qonşu Rusiyada kitabxana binalarının tikintisi zamanı YUNESKO-nun hazırladığı kitabxanaların xüsusiyyətləri, fərqli cəhətləri və funksional vəzifələri nəzərə alınmaqla onların təşkilatı hazırlanmış və təsdiq edilmişdir. YUNESKO təşkilatı belə müəyyənləşdirmişdir ki, kitabxanaların ümumi xaeakteristikasını formal elementlərini nəzərə alaraq kitabxana binalarının beynəlxalq təsnifatını təsdiq etmişdir. Təklif olunmuşdur ki, kitabxanaların aşağıdakı növləri təsdiq edilsin.

Milli kitabxanalar
Digər böyük, universal və ümumiaçıq kitabxanalar
Ali təhsil müəssisələrinin kitabxanaları
Tədris kitabxanaları
Xüsusi təhsil müəssisələrinin kitabxanaları
Kütləvi, ümumiaçıq kitabxanalar (4, s.91).

Bu kitabxanaların hər biri üçün inkişaf etmiş ölkələrdə və Rusiyada həmçinin memarlıq-tikinti normaları müəyyənləşdirilmişdir. Kitabxana binalarının tikintisi zamanı bu tələblər beynəlxalq standartlar səviyyəsində tələb edilir. Kitabxana binalarının tikintisi zamanı mühəndis infrastrukturu ilə yanaşı kitabxana mütəxəssisləri də layihələşmədə və tikintidə özlərinin mütəxəssis təkliflərini də verməlidirlər. Hazırda mütəxəssislər qeyd edirlər ki, artıq bu sahədə, xüsusilə, kitabxana binalarının tikintisində bir sıra normativlər kohnəlmişdir. Ona görə də bəzi kitabxana işçiləri, tədqiqatçılar və mühəndislər



Azərbaycan Milli Kitabxanası

müxtəlif variantlar təklif edirlər ki, bu sahədə yeni standartlar və layihələr hazırlansın. Əlbəttə belə normaların və standartların işlənilməsində vahid metodik prinsiplər əsasında İFLA-nın təklifləri nəzərə alınmaqla təstiqlənməlidir.

Nəticə. Azərbaycan bu norma və standartların həyata kecçirilməsində iştirak etməli və kitabxana binalarının tikintisində, onun memarlığında standartların tətbiqində iştirak etməlidir.Təəssüflə demək olar ki, Azərbaycanda fəaliyyət göstərən 12 minə yaxınmüxtəlif nazirlik, idarə və müəssisələrin nəzdində fəaliyyət göstərən kitabxanaların demək olar ki hec birihəmin standartlara uyğun tikilməmiş bir çoxu isə kirayənişin kimi mənzillərdə yerləşir. Artıq birtipli müxtəlifarnamentdə, milli üslubda xüsusi kitabxana binalarının tikintisi həyata keçirilməlidir. Hazırda Azərbaycanda bir sıra sahələrdə xüsusi proqramlar əsasında layihələr həyata keçirilir. Mədəniyyət sahələrində xüsusi proqramlar mövcud olduğu halda ayrıca belə layihələrin həyata keçirilməsi vaxtı çoxdan çatmışdır. Azərbaycanda son illərdə dünyada alternativi olmayançox böyük tikinti abadlıq işlərinin aparılması onu göstərir ki, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkədə yaranan iqtisadi inkişafyeni tipli kitabxana binalarının tikintisinə başlamağa imkan verir.

## Ə D Ə B İ Y Y A T


1.Библиотечные здания. Основные положения библиотечного строителства. М. Строй – издал. 1993. 236 с

2.Гаскюэль. Пространства для библиотеки: руководства для всех тех кто строит, обарудет и обнавляет/ нез. С.франу М. А. Риновой, М. Рудомико, 1995. 268с

3.Справочник библиотекаря. СП.: профессия, 2004, 405с

4.Исаев Э. Современное требования к реанировенное и оборудования библиотек// Библиотекар 1970 Н10

5.Горев В. Г. Здание интерер и оборудования СПБ 2001, 386-387с

6.Аронова И.И. Современная библиотека: Освещения и дизайн// Петербургская библиотечная школа. 1998 Н 3-4

7.Роме Р. Гибкая планировка библиотечных зданий НФБ СССР. 1972 вып 3 (105).

8.Дворкина М. Я. Организация библиотечной среды для читателей// библиотечное дело и библиография: экспресс информация М. 1990 вып 8.

9.Страшнов В. Библиотека в первом этаже: вестибул// . Библиотекар 1976 Н 9.




**Kh.I.İsmailov**

### THE ESTABLİSHMENT, DEVELOPMENT AND MODERN POSİTİON OF LİBRARY DESİGN


**S U M M A R Y**

The article is talking about the establishment, development history of the library design and the main features of this activity of the library design. The article is done about theoretical generalization modern situation and perspective of library design.


**Х.Исмаилов**

### СОЗДАНИЕ, РАЗВИТИЕИ СОВРЕМЕННОЕ СОСТОЯНИЕ БИБЛИОТЕЧНОГО ДИЗАЙНА


**РЕЗЮМЕ**

В статье анализируется история создания, современное состояние развития библиотечногодизайна и основных особенностей этой деятельности. А также делаются теоретическиеобобщения современной ситуации и перспективы библиотечного дизайна.